**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# CURCİ ZEYDAN İSLAM MƏDƏNİYYƏTİNİN TƏDQİQATÇISI KİMİ

İxtisas: 5718.01 - Dünya ədəbiyyatı (ərəb ədəbiyyatı)

Elm sahəsi: Filologiya

İddiaçı: **Əzizə Hikmət qızı İsmayılova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunnun "Ərəb filologiyası" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, dosent
**Lalə Məzahir qızı Bayramova**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Kamandar Kazım oğlu Şərifov**

filologiya üzrə fəlsəfə doktoru
**Aynur Zahid qızı Hüseynzadə**

filologiya üzrə fəlsəfə doktoru
**Cəmilə Vaqif qızı Dəmirova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.18 – Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ________________
AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**Gövhər Baxşəli qızı Baxşəliyeva**

Dissertasiya şurasının elmi katibi: ________________
filologiya üzrə fəlsəfə doktoru, dosent
**Xanımzər Əli qızı Kərimova**

Elmi seminarın sədri: ________________
AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**Muxtar Kazım oğlu İmanov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Ərəb mədəniyyətinin, elminin inkişaf tarixində, fəlsəfi-dini təfəkkürünün formalaşmasında səmavi dinlərin sonuncusu olan islam dininin böyük rolu olmuşdur. İslamın din olaraq təşəkkülündə, daha sonralar coğrafi hüdudlarını genişləndirərək qonşu dünya xalqlarının həyat və məişətində mötəbər bir inam, əqidə simvoluna çevrilməsində və beləliklə də, tədricən kütləviləşərək ümumbəşəri mövqe kəsb etməsində Məhəmməd peyğəmbərin (s), onun əshab və ənsarlarının, ardıcıllarının rolu, onların bu dinin qələbəsinin təminatı və təbliğatı uğrundakı mübarizələrinin səmərəliliyi danılmazdır.

Qeyd etməliyik ki, ərəb ədəbiyyatı tarixində Ərəbistan yarımadasında islam mədəniyyətinin öyrənilməsinə bir çox tədqiqat əsərləri həsr olunmuşdur. Yeni dövr ərəb ədəbiyyatının görkəmli nümayəndəsi, yazıçı və publisist Curci Zeydanın (1861-1914) 1902-1906-cı illər arasında qələmə aldığı "Tərixu-t-təmədduni-l-isləmiyyi" – "تاريخ التمدن الاسلامي" ("İslam mədəniyyəti tarixi") adlı beşcildlik tədqiqat əsəri belə əsərlərdəndir. Beşcildlikdə ərəblərin Cahiliyyət dövrü də daxil olmaqla təqribən 6-7 əsrlik bir dövrü əhatə edən islam mədəniyyəti müfəssəl araşdırılmışdır.

Məhz bu əsərin kontekstində islam mədəniyyətinin araşdırılması, konkret olaraq ərəb ədəbiyyatı, memarlığı, musiqisi, ədəbi və elmi məclisləri ilə bağlı çoxsaylı maraqlı faktların tədqiqata cəlb edilməsi nəticəsində əldə olunan maraqlı və dəyərli elmi qənaətlər işin aktuallığını, nəzəri əhəmiyyətini artırır.

Məlumdur ki, islamdan öncəki dövr tarixçilər tərəfindən Cahiliyyət "Əl-asru-l-cəhiliyyu" – "العصر الجاهلي" ("Cahiliyyət əsri") dövrü adlandırılırdı, lakin dövrün adı ilə heç bir əlaqəsi olmayan, həmin zaman kəsiyini əhatə edən zəngin, təkrarsız ədəbi incilərin olduğu da danılmazdır. C.Zeydanın tarixi məxəzləri araşdıraraq bu dövrlə bağlı dəyərli məlumatları toplaması və haqlı olaraq "İslam mədəniyyəti tarixi" adlı əsərinə daxil etməsi isə təsadüfi deyildi. Belə ki, C.Zeydan məhz Cahiliyyə şairlərinin irsinin çoxəsrlik ərəb ədəbiyyatı tarixinin bünövrəsini təşkil etdiyini bu əsərində vurğulamış, maraqlı məlumatlar diqqətə çatdırmışdır. Əsərin

sayəsində həmin dövrün ətraflı mənzərəsi ilə tanış olmaq mümkündür.

Bu köçəri həyat və məişət tərzinin bədii vəsfi Cahiliyyət dövrü şairlərinin şeirlərində geniş əks olunub. Buna misal olaraq Cahiliyyət dövrünün ən məşhur şairi İmrul Qeysin (501-544) adını çəkmək və onun "Qıfa nəbki" ("Dayanın ağlayaq") mətləli müəlləqəsini xatırlatmaq istərdik.

İmrul Qeysin müəlləqəsi ilə yanaşı, daha bir neçə Cahiliyyət şairlərinin "Müəlləqə"lərini də bu sıraya aid etmək olar. Sabit poetik ölçülərə, təxminən eyni süjet xəttinə malik olan bu qəsidələr əsasən "ətlal"a (xarabalıqlara) xitabən yazılır. Əsasən Qureyş ləhcəsində qələmə alınmış bu qəsidələr – "müəlləqələr" (asılmışlar) Ukaz bazarında Cahiliyyət dövrünün ən-Nabiğə əz-Zubyani (535-604) kimi istedadlı şairləri tərəfindən bəyənildikdən sonra dinləyicilərin rəğbətini qazanırdı. "Müəlləqə" sahiblərindən Zuheyr ibn Əbi Sulmənin (530-627), Haris bin Hillizənin (?-580), Əmr ibn Kulsumun (526-584), eləcə də "əl-Əşa" ləqəbi ilə tanınan Əbu Bəsir Məymun ibn Qeys (530-629), ən-Nabiğə əz-Zubyani (535-604), Əntərə ibn Şəddadın (525-615) adlarını xatırlatmaq yerinə düşərdi. Bu sıraya Cahiliyyət dövründə parlamış əl-Xənsa bint Tuməyrədin (?-664), Kəb ibn Zuheyrin və ərəb kahini Quss ibn Səidənin (?-600) də adlarını əlavə etmək mümkündür.

İslamın zühuru ərəfəsində Ərəbistanda bütpərəstlik, xristianlıq, yəhudilik yayılmışdı. Bunlardan bütpərəstlik öndə gedən dinlərdən idi. Curci Zeydan özünün beşcildlik "Tərixu-t-təmədduni-l-isləmiyyi"- "تاريج التمدن الاسلامي" ("İslam mədəniyyəti tarixi") adlı tədqiqat əsərinin birinci cildində bu barədə belə yazır: "*O dövrdə ərəblərin büt allahlarının sayı üç yüzdən artıq idi. Hər qəbilənin Kəbədə bir bütü və onun ziyarətinə gəlmək üçün müəyyən günü vardı. Həmin bütün ziyarətinə gələn qəbilə üzvləri ona qurbanlar kəsirdi. Beləliklə, Kəbədə bir qismi insan, bir qismi heyvan, bir qismi isə ağac şəklində olan üç yüzdən çox "sənəm" (büt) cəmləşmişdi*"[1].

Bundan əlavə Cahiliyyət dövrü ərəblərin mənfur bir adəti də

[1] زيدان، جرجي. تأريخ التمدن الإسلامى. – القاهرة: دارالهلال، – ١٩٥٦، – الجزء الأول. – ص.٣٦-٣٧.

vardı. Bu adət ərəbcə “vaadə” – "وأد" (diri-diri basdırmaq) adlanırdı və ailədə yeni dünyaya gəlmiş qız uşaqlarının hələ bələkdə ikən məhv edilməsindən ibarət idi.

VII əsrin əvvəllərində ərəblərə fərqli təfəkkür və dini dünyagörüşü ehtiva edən yeni ideologiya nazil oldu. Məhəmməd peyğəmbər (s) ərəbləri bütlərə sitayişdən əl çəkərək Allaha ibadətə – tövhidə dəvət etdi. Lakin ərəb tarixinə islam dini kimi daxil olan bu yeni əqidə və məişət tərzini səhra ərəbləri, o cümlədən bütpərəst, xristian və yəhudi əqidəli insanlar ilk öncə qəbul etmək istəmədilər. Burada Zuheyr ibn Əbu Sulmənin oğulları – şairlər Buceyrlə (?-678) Kəb ibn Zuheyr (?-661) arasında gedən əqidə mübarizəsini yada salmaq məqsədəuyğun olardı.

Demək lazımdır ki, Məhəmməd peyğəmbərin (s) Məkkə kübarları və müşrikləri tərəfindən böyük təzyiq və təqiblərə məruz qalmasına baxmayaraq, 114 surəli Qurani-Kərim Ərəbistan torpağında nazil oldu. Üçüncü Rəşidi xəlifəsi Osmanın dövründə (644-656) yazıya alındıqdan sonra ərəblər yazı-oxu mədəniyyətinə, islam əxlaqına yiyələnməyə, öz gündəlik məişət tərzlərini bu səmavi kitabın tövsiyələrinə uyğun şəkildə nizama salmağa başladılar. Onlar tövhidi – təkallahlığı, bütün islami ehkamları qəbul edərək bu dinin təbliğatçılarına çevrildilər.

İslamın zühurundan sonrakı dövrlərdə bərqərar olmuş xilafət zamanı şeir və musiqi sənətinin, mədrəsə və kitabxanaların, eləcə də xəlifə və vəzir səxavətinin islam mədəniyyətinin inkişafında əhəmiyyətli rolu olmuşdur. İslam mədəniyyətinin Ərəbistanın hüdudlarından kənara çıxıb Əndəlusa qədər yayılması Curci Zeydanın “İslam mədəniyyəti tarixi” adlı tədqiqat əsərində geniş tədqiq və təhlil olunmuşdur. Bu mənada islam mədəniyyətinin Curci Zeydanın tədqiqat əsərləri əsasında öyrənilməsi dissertasiya işinin aktuallığını təmin edir.

Mövzunun işlənmə dərəcəsinə gəldikdə isə, “Curci Zeydan islam mədəniyyətinin tədqiqatçısı kimi” mövzusunda dissertasiya işi şərqşünaslıq elmində müstəqil mövzu kimi tədqiqata cəlb edilməmişdir. Bununla belə, onun ayrı-ayrı sahələri hələ yazıçının öz sağlığında tədqiqatçıların diqqətini özünə cəlb etmişdir. Məsələn, bu beşcildliyin dördüncü cildini ingilis dilinə tərcümə edən ingilis tarixçisi D.S.Marqolius onu belə səciyyələndirirdi: *“Mənim fikrimcə, bu*

*tədqiqat əsəri qədim xilafət tarixinə həsr olunmuş ən dərin tədqiqat əsəridir"*[2].

Curci Zeydanın beşcildlik "İslam mədəniyyəti tarixi" adlı tədqiqatı haqqında məlumatlara akademik İ.Y.Kraçkovskinin "Zeydan"[3] adlı oçerkində, həmçinin akademik Z.M.Bünyadovun "Azərbaycan VII-IX əsrlərdə"[4] kitabında, N.M.Vəlixanlının "Ərəb xilafəti və Azərbaycan"[5], professor M.R.Mahmudovun "Xətib Təbrizinin həyat və yaradıcılığı"[6] adlı tədqiqat əsərlərində rast gəlmək mümkündür.

Qeyd edək ki, Curci Zeydan yaradıcılığı, onun tarixi romanları, publisistikası dünya ədəbiyyatşünaslığında hər zaman tədqiqatçıların diqqətini cəlb etmişdir.

Azərbaycan ərəbşünaslığında Curci Zeydanın yaradıcılığı və tarixi romanları Elman Araslı tərəfindən tədqiq edilmiş və "Circi Zeydan və ərəb tarixi romanı"[7] adlı monoqrafiyasında öz əksini tapmışdır. E.H.Araslı öz tədqiqatında Curci Zeydanın yaşadığı dövrün ədəbi-mədəni mühitindən danışmış, onun bir sıra tarixi romanlarını təhlil etmişdir.

Yazıçının tarixi romanları hələ XX əsrin əvvəllərində oxucuların rəğbətini qazanmışdı. Belə ki, bu romanların dördü - "Ərmənusə əl-Mısriyyə"[8], "Qureyş bakirəsi"[9], "17 Ramazan"[10] və "Kərbəla

---

[2] Margoliouth, D.S. History of Islamic Sivilization works of George Zaidan / D.S.Margoliouth. – London, – 1904. – s. 6.

[3] Крачковский, И.Ю. Избранные сочинения: [в 6 томах] / И.Ю.Крачковский. – Москва-Ленинград: Издательство академии наук СССР, – 1956, – т.3, – с. 234-237

[4] Bünyadov, Z.M. Azərbaycan VII–IX əsrlərdə / Z.M.Bünyadov. – Bakı: Pedaqoqika, – 2004. – 392 s.

[5] Vəlixanlı, N.M. Ərəb xilafəti və Azərbaycan / N.Vəlixanlı. – Bakı: Azərnəşr, – 1993. – 157 s.

[6] Mahmudov, M.R. Xətib Təbrizinin həyat və yaradıcılığı / M.Mahmudov. – Bakı: Elm, –1972. – 206 s.

[7] Араслы, Э.Г. Джирджи Зейдан и арабский исторический роман / Э.Араслы. – Москва: Издательство Наука, – 1968. – 80 с.

[8] Zeydan, C. Ərmənusətül-Mısrıyyə / C.Zeydan, ərəb dilindən tərcümə ed., Axund Mir Məhəmməd Kərim Mircəfərzadə. – Bakı: Orucov qardaşları mətbəəsi, – 1912. – 471 s.

[9]Zeydan, C. Əzrayi-Qüreyş (İslam tarixi) / C.Zeydan, ərəb dilindən tərcümə ed., Axund Mir Məhəmməd Kərim Mircəfərzadə. – Bakı: "Kaspi" qəzetinin mətbəəsi, – 1908, – 534 s.

yanğısı”[11] romanları 1908-1912-ci illərdə Bakı qazisi, axund Mirməhəmməd Kərim Mircəfərzadə (1853-1938) tərəfindən Azərbaycan dilinə tərcümə olunmuş və oxucuların ixtiyarına verilmişdir.

Ədibin “Fərqanə gəlini” romanı[12] isə 1996-cı ildə ərəbşünas-alim, professor V.A.Cəfər tərəfindən ərəb dilindən Azərbaycan dilinə tərcümə edilmişdi.

Şərqşünas-alim S.A.Səlimovanın “Ərəb bədii nəsrində ilkin Abbasilər dövrünün təsviri”[13] adlı monoqrafiyasında “Circi Zeydan və onun Abbasilər dövründən bəhs edən tarixi romanları” bölməsi yer almışdır.

Türk ədəbi-elmi mühitində də C.Zeydan geniş tədqiq edilmişdir. Onun bir çox tarixi romanları, tədqiqat əsərləri türk dilinə tərcümə olunmuş, yaradıcılığı haqqında məqalələr yazılmışdır[14].

Rus şərqşünaslığında C.Zeydan yaradıcılığı peşəkarcasına araşdırılmışdır. Akademik İ.Y.Kraçkovski “Zeydan”, “Müasir ərəb ədəbiyyatında roman janrı”[15] tədqiqatlarında, A.Y.Krımski “Ərəb ədəbiyyatı oçerk və nümunələrdə”[16], Sankt-Peterburq Universitetinin professoru A.A.Dolinina “Müasir ərəb ədəbiyyatı tarixinə dair oçerklər: Misir və Suriya. Maarifçilik romanı 1870-

---

[10] Zeydan, C. On yeddi ramazan / C.Zeydan, ərəb dilindən tərcümə ed., Axund Mir Məhəmməd Kərim Mircəfərzadə. – Bakı: Orucov qardaşları mətbəəsi, – 1911. – 374 səh.

[11] Zeydan, C. Kərbəla yanğısı / C.Zeydan, ərəb dilindən tərcümə ed., Axund Mir Məhəmməd Kərim Mircəfərzadə. – Bakı: Orucov qardaşları mətbəəsi, – 1911. – 537 səh.

[12] Zeydan, C. Fərqanə gəlini / C.Zeydan, ərəb dilindən tərcümə ed., V.Cəfər. – Bakı: Gənclik, – 1996. –292 s.

[13] Səlimova, S.A. Ərəb bədii nəsrində ilkin Abbasilər dövrünün təsviri / S.Səlimova. – Bakı: Araz nəşriyyatı, – 2015. – s. 146-178

[14] Çakır, Mürüvvet Türken. Corci Zeydan’in “Kureyş bakiresi” adli tarihi romani üzerine bir inceleme // Bayburt Üniversitesi İnsan ve Toplum Bilimleri Fakültesi Dergisi. Cilt 1, Sayı 1, – 2018. – s. 133-145

[15] Крачковский, И.Ю. Избранные сочинения: [в 6 томах] / И.Ю.Крачковский. – Москва-Ленинград: Издательство академии наук СССР, – 1956, – т.3, – с. 234-237; с. 32-40

[16] Крымский, А.Е. Арабская литература в очерках и образцах / А.Е.Крымский. – Москва: Наука, –1911. – с. 17

1914"[17] adlı əsərində ədibin həyatı, yaradıcılığı barədə oxuculara mükəmməl məlumatlar vermişlər. Yazıçının iki romanı isə "Əmin və Məmun"[18] və "Abbasə Harun ər-Rəşidin bacısıdır"[19] ötən əsrin ikinci yarısında rus ərəbşünasları tərəfindən Moskva və Leninqradda rus dilinə tərcümə olunaraq oxucuların ixtiyarına verilmişdir.

Ədibin həyat və yaradıcılığı, dünyagörüşü, publisistikası haqqında Misir ədibi Ənvər əl-Cundi "Curci Zeydan munşiu-l-Hiləl" –"جرجي زيدان منشئ الهلال" ("“Əl-Hilal” jurnalının təsisçisi Curci Zeydan")[20] adlı çox dəyərli bir əsər yazmışdır. Tanınmış mütəfəkkir Məhəmməd Yusif Nəcm isə ədibin tarixi romanlarının təhlili əsasında "Yeni ərəb ədəbiyyatında roman janrı" adlı fundamental tədqiqat işi ərsəyə gətirmişdir[21]. Bundan başqa C.Zeydanın həyat və ədəbi yaradıcılığına bir sıra məqalələr həsr olunmuşdur. Bunlardan Məhəmməd Hüseyn Heykəlin "Curci Zeydan, onu tanıdığım kimi", Məhəmməd Fərid Vəcdinin "Curci Zeydanın xatirəsinə", Abbas Mahmud əl-Akkadın "Curci Zeydan – mütəfəkkirdir", Xəlil Mutranın "Curci Zeydan – əsl insan və yenilikçi alimdir", Abd əl-Əziz əl-Bəşərinin "Curci Zeydan – parlaq nümunədir" adlı məqalələrini qeyd etmək olar. Bu məqalələr "əl-Hilal"ın xüsusi buraxılışının qırx yeddinci nömrəsində çap olunmuşdur[22].

Qərb alimlərindən H.A.R.Gibb, C.C.Brokelman, D.S.Margolius, M.Hartman, G.L.Kampfmeyer öz tədqiqatlarında C.Zeydan yaradıcılığından bəhs etmişlər.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyektini

---

[17] Долинина, А.А. Очерки истории арабской литературы нового времени: Египет и Сирия. Просветительский роман 1870-1914 г.г. / А.А.Долинина. – М: Наука, – 1973. – 272 с.

[18] Зейдан, Джирджи. Аль-Амин и аль-Мамун / Дж.Зейдан. – Роман. Перевод с арабского М. Дердирова, В. Рущакова, – Л: Худож. лит., – 1977. – 328 с.

[19] Зейдан Джирджи. Сестра Харуна Ар-Рашида / Роман. Перевод с арабского И. Лебединского, – Л: Худож. лит., – 1970. – 232 с.

[20] الجندی، انور. زيدان منشئ الهلال. القاهرة: مكتبة الأنجلو المصرية، – ١٩٥٦، – ١٠٠ ص.

[21] محمد يوسف نجم. القصة في الادب العربي الحديث، – القاهرة، – ١٩٥٢، – ٣٢٠ ص.

[22] ارشيف الشارخ: [Elektron resurs] https://archive.alsharekh.org/magazineYears/134

XIX əsrin sonları və XX əsrin əvvəllərində yaşamış tanınmış ərəb yazıçısı və publisisti Curci Zeydanın “Tərixu-t-təməddunі-l-isləmiyyi” – "تاريخ التمدن الاسلامي" (“İslam mədəniyyəti tarixi”) adlı beşcildlik əsəri təşkil edir. Bu beşcildlikdə Curci Zeydan ərəblərin Cahiliyyət, Əməvilər və Abbasilər dövründə ədəbi-mədəni, elmi-fəlsəfi, dini-ictimai həyatını qədim ərəb tarixçilərinin, filosof və səyahətçilərinin əsərlərinə istinad etməklə araşdırmışdır. Dissertasiyanın predmetini isə Curci Zeydanın islam mədəniyyətinin tədqiqatçısı kimi araşdırılması təşkil edir. Xüsusilə, əsas diqqət Curci Zeydan yaradıcılığında islam mədəniyyətinin əhatəli şəkildə araşdırılmasına yönəldilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin başlıca məqsədi islam mədəniyyətinin hər bir sahəsini “İslam mədəniyyəti tarixi”nin beş cildi əsasında dərindən tədqiq etmək və islamın ərəb xilafətinin beşəsrlik dövlət idarəçiliyi sistemində misilsiz bir rol oynadığını təsbit etməkdən ibarət olmuşdur. Dissertasiyada qarşıya qoyulan məqsədə çatmaq üçün aşağıdakı vəzifələrə əməl olunmuşdur:

– Curci Zeydanın həyat və yaradılıcılıq yolu izlənilərək “İslam mədəniyyəti tarixi” əsərini dərindən araşdırmaq və islam mədəniyyətinin müxtəlif sahələrini hərtərəfli öyrənmək;

– İslam mədəniyyətinin qədim tarixi kökə malik olduğunu sübuta yetirmək üçün “Ukaz” bazarının ədəbi əhəmiyyətini üzə çıxarmaq və onun islam mədəniyyətinin inkişafında xüsusi rolu olduğunu vurğulamaq;

– Qurani-Kərimin və Məhəmməd peyğəmbərin (s) yeni ideoloji təlimin islam mədəniyyətinin əsası olduğunu şərh etmək;

– Ərəblərin yazı-oxu mədəniyyətinə yiyələnməsində, ərəb dilçilik elminin formalaşmasında Qurani-Kərimin istiqamətverici rolunu üzə çıxarmaq;

– Əməvi və Abbasi xəlifələrinin elmə, ədəbiyyata, musiqiyə göstərdikləri diqqət və qayğının dəyərini müəyyənləşdirmək;

– Alimlərə, şairlərə xəlifələr tərəfindən göstərilən səxavət və kəramətin ümumi islam mədəniyyətinin inkişafına təkan olduğunu qeyd etmək;

– Ümumi islam mədəniyyətinin tərəqqisində azərbaycanlı

alimlərin də rolunun olduğunu sübut etmək;

– Nəhayət, islam mədəniyyətinin Əndəlusda yaranması və inkişafını Curci Zeydanın beşcildlik tədqiqat əsərinə əsasən araşdırmaq.

Yuxarıda qeyd olunan məsələlər Curci Zeydanın ümumi islam mədəniyyətinin araşdırılmasındakı xidmətlərinin ana xəttini təşkil edir.

**Tədqiqat metodları.** Dissertasiya işində ədəbiyyatşünaslıq, tarixşünaslıq və mədəniyyətşünaslıq kontekstində müqayisəli təhlillər aparılaraq aşağıdakı metodlardan istifadə edilmişdir:

– fakt və materialların toplanaraq istifadə edilməsi;
– tarixi-ədəbi və tarixi-mədəni aspektdən yanaşma metodu;
– tarixi müqayisəli təhlil və şərh;
– ümumiləşdirmələr aparılaraq elmi nəticələrin əldə edilməsi;
– alınan nəticələrin vahid sistemdə birləşdirilməsi.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Curci Zeydan ədəbi irsini tədqiq etmək və mövzunu tam şəkildə əhatə etmək üçün aşağıdakı müddəaların müdafiəsi nəzərdə tutulur:

– Dissertasiya işində araşdırılmaya cəlb edilən “Tərixu-t-təmədduni-l-isləmiyyi” – "تاريخ التمدن الاسلامي" (“İslam mədəniyyəti tarixi”) adlı beş cildli əsəri və tarixi romanları əsasında yazıçı və publisist kimi tanınan Curci Zeydanın islam tarixi və mədəniyyətinin məhsuldar tədqiqatçısı olduğu aydın olur;

– İslamdan əvvəl ərəblərin islam mədəniyyətinin qismən bəhrələndiyi cahiliyyə mədəniyyəti mövcud olmuşdur. Məhz buna görə də, bu mədəniyyət az da olsa cahiliyyə mədəniyyətinin xələfi kimi də səciyyələndirilir;

– Tədqiqatda islam mədəniyyətinin Qurani-Kərimin və Məhəmməd peyğəmbərin (s) yeni ideoloji təliminin əsasında yarandığı qeyd olunur və Curci Zeydanın adıçəkilən əsərindəki dəyərli fikirləri təsbit edilir;

– Curci Zeydanın tədqiqatlarında islam dininin yaranmasından və nəşətindən sonra ərəb-islam elminin ayrı-ayrı sahələrinin intibah yaşadığı və bu intibahın öz coğrafi hüdudlarını aşaraq Qərb də daxil olmaqla, daha geniş müstəvidə yayılması maraqlı faktlarla vurğulanır;

– İslam mədəniyyətinin dirçəlməsinə, elmin inkişafına Əməvi və Abbasi xəlifələrinin göstərdikləri diqqət və qayğı haqlı olaraq yüksək qiymətləndirilir;

– Ərəb xilafətinin tərkibində yaşayan bir çox xalqların rolu vurğulanmaqla, azərbaycanlı alimlərin də ümumislam mədəniyyəti və elminin inkişafında töhfələri haqlı olaraq diqqətə çatdırılmışdır.

**Tədqiqat işinin elmi yeniliyi.** "Curci Zeydan islam mədəniyyətinin tədqiqatçısı kimi" adlı dissertasiya mövzusu Azərbaycan şərqşünaslığında indiyə qədər tədqiqata cəlb olunmamışdır. Bu dissertasiya işində ilk dəfə olaraq, Curci Zeydan islam mədəniyyətinin tədqiqatçısı kimi təqdim edilir. İslamın mövcud olduğu 1400 illik tarixi ərzində bu mədəniyyət istər dağınıq, istərsə də kompleks şəklində Curci Zeydanın yaradıcılığında olduğu qədər obyektiv işıqlandırılmamışdır. Dissertasiyada Curci Zeydanın beşcildlik əsəri əsasında Ərəb Şərqində, eləcə də Əndəlusda mövcud olan islam mədəniyyəti məhz mötəbər mənbələrdən əxz edilən tarixi nümunələr fonunda ətraflı araşdırılır. Bu kimi məsələlərin əhatəli tədqiqi və təhlili dissertasiyanın elmilik səviyyəsinin yüksək olduğuna dəlalət edir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti aşağıda göstərilən müddəalarla təsbit olunur:

– Dissertasiya işi tamamilə yeni yanaşma üsulu ilə yazılmışdır. Belə ki, mövzu tarixi və ədəbi-mədəni dəyərlər fonunda işləndiyi üçün bu formada yazılacaq əsərlərə yeni bir qaynaq və polemik mənbə rolunu oynaya bilər;

– Ərəb ədəbiyyatının və islam mədəniyyətinin təlimi və tədrisində praktik vəsait kimi müraciət edilə bilər;

– Ərəb filologiyası üçün dəyərli məlumatları əhatə edən dissertasiya, xüsusilə ərəb ədəbiyyatının Cahiliyyət dövründən Abbasilərin Yaxın və Orta Şərqdə əsasını qoyduğu "Qızıl əsr"in ("Əl-asr əz-zəhəbi") ikinci yüzilliyinə qədər olan bir dövrün elmi-nəzəri araşdırılmasında istifadə edilən ədəbiyyat siyahısına daxil edilə bilər;

– Dissertasiyanın nəticələrindən praktiki baxımdan ali məktəblərin şərqşünaslıq, filologiya, tarix və ilahiyyat fakültələri

üçün dərslik və dərs vəsaitlərinin yazılması, fənn proqramlarının tərtibi, ixtisas kursu və mühazirələrin hazırlanmasında istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas nəticələri və elmi-nəzəri müddəaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi yerli və xarici elmi jurnallarda çap olunan məqalələrdə, respublika və beynəlxalq elmi konfransların materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda yerinə yetirilmişdir.

**Dissertasiya işinin strukturu və ümumi həcmi.** Dissertasiya Giriş (14795 şərti işarə), üç fəsil (I Fəsil - üç paraqraf – 49282 şərti işarə; II Fəsil - dörd paraqraf – 68365 şərti işarə; III Fəsil - dörd paraqraf – 111482 şərti işarə), Nəticə (5456 şərti işarə) və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin ümumi həcmi 249380 şərti işarədir.

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yerinə yetirilmişdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın Giriş hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsindən bəhs edilmiş, tədqiqatın məqsəd və vəzifələri, metodları müəyyən olunmuş, müdafiəyə çıxarılan əsas müddəalar göstərilmiş, elmi işin yeniliyi, nəzəri və praktiki əhəmiyyəti əsaslandırılmış, strukturu, aprobasiyası və tətbiqi barədə məlumat verilmişdir.

Dissertasiyanın **"Curci Zeydanın həyatı, mühiti və əsərləri"** adlanan birinci fəsli üç paraqrafdan ibarətdir. **"Curci Zeydanın həyatı və ədəbi-mədəni mühiti"** adlı ilk paraqrafda görkəmli ərəb yazıçısı Curci Zeydanın (1861-1914) həyatı araşdırılmış və ədibin yaşadığı dövrün ədəbi-mədəni mühitinə qısaca nəzər salınmışdır.

Məlum olduğu kimi, ərəb ədəbiyyatının, mədəniyyətinin XIX

əsrin başlanğıcından sonrakı dövrü “Asru-n-nahda” – "عصر النحضة" (“Dirçəliş əsri”) adlanır.

“Ən-nahda” qədim ərəb irsinin dirçələrək tərəqqi etməsi və müasir dövrün tələblərinə müvafiq şəkildə istifadə edilməsi kimi başa düşülür[23].

“Ərəb intibahı”, “Maarifçilik” kimi də tanınan bu dövrdə elm və qədim mədəniyyət yenidən dirçəlməyə başladı. Qərb mədəniyyətinin təsiri və ərəb dünyasının siyasi dirçəlişi ilə yeni ədəbiyyat yarandı. Bu dövrdə yaranan yeni ədəbiyyatın görkəmli nümayəndələrindən biri də tanınmış yazıçı, 22 tarixi roman müəllifi, publisist, dilçi, tarixçi, tədqiqatçı, əslən livanlı olmasına baxmayaraq, bütün həyatını Qahirədə yaşamış dünyaca məhşur olan ərəb ziyalısı Curci Zeydandır.

Curci Zeydan 1861-ci ilin dekabr ayının 14-də Livanın paytaxtı Beyrutda xırda ticarətçi, xristian Həbib Zeydanın ailəsində dünyaya gəlmişdir. Onun atası Həbib Zeydan ailəni dolandıra bilmədiyi üçün az bir müddətdən sonra balaca Curcinin əməyindən istifadə etməli olur və onu məktəbdən uzaqlaşdıraraq özünə köməkçi götürür. Lakin Curci Zeydan təhsilindən uzaqlaşmır.

1881-ci ildə Beyrutdakı “Amerika kolleci”nin tibb fakültəsinə daxil olur. 1883-cü ildə əczaçı diplomuna yiyələndikdən sonra tibb sahəsində təhsilini davam etdirmək üçün Misirə yollanır. Lakin tibb üzrə təhsil uzunmüddətli olduğu üçün bu fikirdən əl çəkir. Misirli ədiblərlə tanış olur və qarşılaşdığı mühit onun yaradıcılığının istiqamətini müəyyənləşdirir. O, elm və incəsənətin müxtəlif sahələrində biliklərini genişləndirərək xalqa çatdırmağa çalışır[24].

Curci Zeydanın həyat yolu elmi-publisistik, bədii yaradıcılıq və tədqiqatçılıq yoludur. O, Qahirəyə gəldiyi gündən bu ölkənin ədəbi, elmi-publisistik mühitində formalaşır. Bu mühit onu publisist, tədqiqatçı, eləcə də o dövrə qədər islam tarixinin müxtəlif mərhələləri barədə zəngin fakt və dəlillərlə müşayiət olunan

---

[23] Долинина, А.А. Очерки истории арабской литературы нового времени Египет и Сирия. Просветительский роман 1870-1914 г.г. / А.А.Долинина. – М: Наука, – 1973. – 272 с.

[24] Араслы, Э.Г. Джирджи Зейдан и арабский исторический роман / Э.Араслы. – Москва: Издательство Наука, – 1968. – с. 23.

oxunaqlı bədii romanlar müəllifinə çevirir. Onun yaradıcılığı təqribən 22 il ərzində ("əl-Hilal" jurnalını nəşrə başladığı dövrdən, yəni 1892-ci ildən ta 1914-cü ilə qədər) yazdığı elmi-tədqiqat işlərini və 22 bədii romanlarını əhatə edir.

Təəsüflər olsun ki, ədib yaradıcılığının çiçəkləndiyi bir vaxtda 1914-cü ilin iyul ayının 21-də 52 yaşında Qahirədə dünyasını dəyişmişdir.

I Fəslin **"Curci Zeydanın tədqiqat əsərləri və tarixi romanları"** adlanan ikinci paraqrafında yazıçının roman yaradıcılığından, tədqiqat əsərlərindən, xüsusilə, dissertasiya işinin mövzusu ilə birbaşa bağlı olan beşcildlik "Tərixu-t-təmədduni-l-isləmiyyi" (1902-1906) - "تاريخ التمدن الاسلامي" ("İslam mədəniyyəti tarixi") adlı tədqiqat əsərindən bəhs olunur.

Beşcildliyin birinci cildini - "Qədim ərəblərdə mədəniyyət", "Cahiliyyətdə ərəb hökumətləri", "Qureyşilər və onların ticarəti", "İslama dəvət", "Raşidi, Əməvi və Abbasi dövlətləri", "Valiliklər, poçt və onun mövqe və vəzifələri" və s. kimi idarəçilik və digər quruculuq işləri barədə aparılan araşdırmalar təşkil edir.

"İslam mədəniyyəti tarixi"nin ikinci cildi əsasən, Məhəmməd peyğəmbərin (s), Raşidi xəlifələrinin, Əməvilər və Abbasilər dövründə cərəyan edən tarixi hadisələrin təfsilatından və xüsusən xəlifə Məmun dövründə islam məmləkətinin coğrafiyasından bəhs edir.

Beşcildliyin üçüncü cildində ilkin islam dövrü ərəblərdə yazı mədəniyyəti, Qurani-Kərim, ərəb dilçi alimləri və ədəbiyyat raviləri, əsasən də, Əməvilər və Abbasilər dövründə şeir məclisləri, xəlifələrin şairlərə göstərdikləri diqqət və qayğı, tərcümə ədəbiyyatı, musiqi və s. məsələlərin şərhinə diqqət yetirilmişdir.

Curci Zeydan "İslam mədəniyyəti tarixi"nin dördüncü cildində ərəb ədəbiyyatının tarixi inkişaf dövrlərində siyasi və ictimai xarakterli məsələlərin şərhinə də öz münasibətini bildirmişdir.

"İslam mədəniyyəti tarixi"nin beşinci cildində islamın artıq bir dini ideologiya, məişət tərzi və dövlət idarə sistemi kimi sabitləşdiyi dövrdə xilafətdə yaranmış ictimai təşkilatlar, musiqi, ifaçılıq sənəti, Misir və Əndəlusdakı islam abidələrinin memarlıq üslubu, xəlifələrin saray mədəniyyəti və s. barədə digər mənbələrdə qismən

işıqlandırılan məsələlər öz əksini tapmışdır.

Yuxarıda qeyd olunan bu çoxsaylı mövzuları əhatəli şəkildə işıqlandırmaq üçün Curci Zeydan ərəb tarixçilərindən Bəlazuri, Məsudi, İbn əl-Əsir, İbn Xəlliqan, İbn Xəldunun, coğrafiyaşünas və səyyah alimlərdən İbn Xordadbeh, əl-İstəxri, Yaqut əl-Həməvi, ədəbiyyatşünaslardan Əbu-l-Fərəc əl-İsfahani, İbn Əbdih Rəbbihi kimi bir çoxlarının əlyazmalarından çox səmərəli şəkildə istifadə etmişdir.

Tədqiqat əsərləri ilə yanaşı Curci Zeydan müasir dövr ərəb ədəbiyyatında "tarixi roman" janrının banisi və ən məhsuldar müəllifi kimi də tanınmışdır. Bu haqda İ.Y.Kraçkovski yazır: *"Tarixi roman janrı məşhur ədib Curci Zeydanın əsərlərində yüksək bədii zirvəyə çatmışdır"*[25].

O, 1892-1914-cü illərdə islamdan əvvəlki dövrlərdən müasir dövrə qədər müsəlmanların həyatında və ərəb tarixində baş verən hadisələrlə bağlı 22 roman nəşr etdirmişdir[26].

Curci Zeydanı istər ərəb dünyasında, istərsə də dünya ədəbiyyatı tarixində məşhurlaşdıran tarixi romanları bunlardır: 1."Əl-Məmluk əş-şərid" (1891) "المملوك الشارد" ("Qaçqın məmluk"); 2."Əsir əl-Mutəməhdi" (1892), "أسير المتمهدي", ("Yalançı Mehdinin əsiri"); 3."İstibdəd əl-məməlik"(1893), "استبداد المماليك", ("Məmlük zülmü"); 4."Cihad əl-muhibbin"(1893), "جهاد المحبين", ("Sevənlərin mübarizəsi"); 5."Ərmənusə əl-Mısriyyə"(1896), "أرمانوسة المصرية", ("Misirli Ərmənusə"); 6."Fətət Ğəssan" (1897-1898), "فتاة غسان", ("Qəssanlı qız"); 7."Əzra Qureyş" (1899), "عذراء قريش", ("Qureyş bakirəsi"); 8."On yeddi Ramazan" (1900), "١٧ رمضان"; 9."Ğadət Kərbəla" (1901), "غادة كربلاء", ("Kərbəla gözəli"); 10."Əl-Həccac bin Yusif" (1902), "الحجاج بن يوسف"; 11."Fəth əl-Əndəlus" (1903), "فتح الأندلس ", ("Əndəlusun fəthi")"; 12."Karl və Əbdrrəhman"(1904), "شارل وعبد الرحمن"; 13."Əbu Muslim Xorasani" (1905), " أبو مسلم الخراساني"; 14."Əl-Abbasə uxt ər-Rəşid"(1906), "العباسة أخت الرشيد",

[25] Крачковский, И.Ю. Избранные сочинения: [в 6 томах] / И.Ю.Крачковский. – Москва-Ленинград: Издательство академии наук СССР, – 1956, – т.3, – с. 74.

[26] Sarikaya, M. / Kirali, A.O. Selahaddin Eyyubi adli romani bağlaminda Corci Zeydanin romanciliği: [Elektron resurs] / Doğu araştırmaları, – 2019. – s. 36-56. URL: https://dergipark.org.tr/en/download/article-file/905102

(“Rəşidin bacısı Abbasə”); 15.“Əmin və Məmun” (1907), “الأمين و المأمون”; 16.“Ərusu Fərqanə” (1908), “عروس فرغانة”, (“Fərqanə gəlini”); 17.“Əhməd bin Tulun” (1909), “أحمد بن طولون”; 18.“Əbdürrəhman ən-nasır” (1910), “عبد الرحمن الناصر”, (“Fateh Əbdürrəhman”); 19.“Əl-inqilab əl-usmani” (1911), “الانقلاب العثماني”, (“Osmanlı inqilabı”); 20.“Fətət əl-ğəyrəvan” (1912), “فتاة القيروان”, (“Qəyrəvan qızı”); 21.“Səlahəddin Əyyubi” (1913), “ صلاح الدين الأيوبي”; 22.“Şəcərət əd-durr” (1914), “شجرة الدر”, (“Mirvari ağacı”).

Dissertasiya işinin birinci fəslinin sonuncu paraqrafı “**Curci Zeydanın publisistikası”** adlanır. Bu paraqrafda yazıçının publisistik fəaliyyətindən, 1892-ci ildə təsis etdiyi “əl-Hilal” jurnalından bəhs olunur.

Curci Zeydanın ölümündən sonra onun adını tarixdə əbədiləşdirəcək əsərlərdən biri də ilk nömrəsi 1892-ci ilin sentyabr ayında Qahirədə nəşr olunan “əl-Hilal” jurnalıdır. Bu jurnal təkcə ədəbi-bədii jurnal kimi fəaliyyət göstərməmişdir. O, eyni zamanda ərəb ölkələrindən çox-çox uzaqlarda, xüsusən XIX əsrin sonlarından Amerika qitəsində yaşayan mühacir ərəblərə bir “Əlifba”, yaxud “Ana dili” kitabı rolunu oynamışdır[27].

Bir sözlə, Curci Zeydan “əl-Hilal”ı təsis etməklə Yaxın Şərqdə jurnalistika sahəsində sanki bir intibah yaratdı və o dövr üçün yeni maarifçiliyin əsasını qoydu.

İkinci fəsildə irəli sürülən müddəalar və əldə edilən nəticələr konfrans materiallarında öz əksini tapmışdır[28; 29].

Dissertasiyanın **“Ərəblərin Cahiliyyət və erkən islam dövründəki ictimai-mədəni həyatı Curci Zeydan tədqiqatlarında”** başlıqlı ikinci fəsli dörd paraqrafdan ibarətdir.

---

[27] İmanzadə, A.Ə. Ərəb ədəbi-bədii fikrinin inkişafında mətbuatın rolu: / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2016. – s. 20.

[28] İsmayılova, Ə.H. Curci Zeydanın Azerbaycan türkçesine çevrilmiş tarihi romanlari. Uluslararası Kars alimleri ve edebiyatçıları sempozyumu-II. Kafkas Universitesi Ebul-Hasan Harakani Uygulama ve Araştırma Merkezi. Kars, Turkiye, 18.11. 2022 (Online), - s. 99-106.

[29] Ismailova, A.H. The “Crescent” of the Middle East. International Euroasia Congress on Scientific Researches and Recent Trends 9. February 18-20, 2022, - Antalya, Turkiye. (Online) - Book of full texts, - p. 190-195.

**“Cahiliyyət və erkən islam dövründə Ərəbistanda ictimai-siyasi və ədəbi-mədəni həyata ümumi nəzər”** adlı birinci paraqrafda islamın zühuru zamanı Ərəbistanda ərəb şeirinin durumundan, ictimai həyatda baş verən təbəqələşmədən, yeni dinin meydana gəlməsi və bu dini qəbul edərək təbliğ edən peyğəmbər şairlərindən danışılır.

VII əsr Ərəbistan yarımadasına yeni ab-hava gətirdi. Bütpərəst ərəb ictimaiyyəti – səhrada yaşayan bədəvi, artıq oturaq həyata qədəm qoyan şəhər əhli, Məkkənin kübar camaatı yeni bir ideologiya ilə tanış oldu. Bu ideologiya tezliklə islam dini adı ilə səhrada və ya şəhərdə yaşamasından asılı olmayaraq, bütün Ərəbistan əhlinin marağına səbəb oldu.

İslamdan öncə Ərəbistan yarımadasında qəbilələr arasında bütpərəstlik geniş yayılmışdı. Məkkədən çox-çox uzaqlarda yaşayan ərəb qəbilələri hər iki ildən bir Zil-hiccə ayının 1-dən 20-ə qədər olan müddətdə Məkkə yaxınlığında yerləşən Ukaz bazarına tələsər, bu müddətdə alış-verişini edər, mal-heyvanını satar, ehtiyaclarını ödəyərdi. Eləcə də ailə üzvlərindən əsir düşərdisə onun azad olunmasına çalışar, bazar müddəti başa çatanda isə Kəbəyə gəlib bütləri ziyarət zamanı onlara dualar etdikən sonra qəbiləsinin yanına qayıdardı[30].

Hirə dağında Məhəmməd peyğəmbərin (s) gözlərinə görünən mələk insanları bütlərə yox, Allaha ibadətə səsləyirdi. Curci Zeydan “İslam mədəniyyəti tarixi”nin birinci cildində belə qeyd edir: *“Bir gün peyğəmbər, insanlardan uzaq qalmaq üçün dağlara, qayalara sığınmışdı. 611-ci ilin Ramazan ayında Məkkədən üç mil kənarda yerləşən Hirə mağarasında peyğəmbərə ilk vəhy gəldi, Qurani-Kərimin ilk surəsini oxudu və onu təkrarlamağa çağırdı[31].*

اقْرَأْ بِاسْمِ رَبِّكَ الَّذِي خَلَقَ          خَلَقَ الْإِنْسَانَ مِنْ عَلَقٍ

*“İqra bismi rabbik əlləzi xalaq. Xalaqa əl-insən min ələq” (Yoxdan yaradan Rəbbinin adı ilə oxu! O, insanı laxtalanmış qandan yaratdı”)[32]. Bu çağırışda insanlar qeyri-səmavi dinlərə yox, göylərdə qərar tutmuş təkallaha ibadət etməyə dəvət olunurdu.*

VII əsrin başlanğıcında - insanların tövhidə səsləndiyi ərəfədə

---

[30] زيدان، جرجي. تأريخ التمدن الإسلامى. – القاهرة: الناشر مؤسسة هنداوي، – ٢٠١٢، – الجزء الثالث. ص. ٢٤ – ٢٥.

[31] زيدان، جرجي. تأريخ التمدن الإسلامى. – القاهرة: دارالهلال، – ١٩٥٦، – الجزء الأول. – ص. ٣٥ – ٣٢.

[32] Qurani–Kərim. Əl-Ələq surəsi. / Ərəb dilindən tərcümə edənlər // Z.M.Bünyadov və V.M.Məmmədəliyev . – Bakı: Azərnəşr, – 1992. – s. 637.

məşhur “Müəlləqə” sahiblərinin bir qismi çoxdan dünyasını dəyişmişdi. O dövrdə yeganə qadın şairə əl-Xənsa ləqəbli Umm Amr Tumadır bint Amr ibn əş-Şərid (?-646) çox cavan yaşlarında şəhid olan qardaşları Saxr və Müaviyəyə ağılar deyə-deyə peyğəmbərlə islam dini barədə söhbətlər apardıqdan sonra islamı qəbul etmişdir.

Beləliklə, bu dövrdə peyğəmbərin və islamın tərəfində durub ona dəstək verən şairlər yetişməyə başlayır.

İkinci fəslin ikinci paraqrafı “**Ukaz bazarı cahiliyyə mədəniyyətinin ədəbi məktəbi kimi”** adlanır. Bu paraqrafda Ukaz bazarının poeziyanın inkişafında oynadığı roldan, orada keçirilən şeirləşmələrdən, şairlərin bu bazarda oxuduqları şeirlərin ümumi təsir gücündən bəhs olunur.

Cahiliyyə dövründə ədəbi məclislər bazarlarda keçirilirdi. Bu məclislər ticari alış-veriş məqsədilə karvan yollarının üzərində qurulur və “suq” - “سوق” (cəmi: “əsvaq” (اسواق)) “bazar” adlanırdı[33].

Curci Zeydan bu bazarlar haqqında belə yazır: *“Cahiliyyət dövründə ərəblər müəyyən aylarda müxtəlif yerlərdə ticari alış-veriş üçün bazarlar qururdular... Bəziləri Sənada da alış-veriş edib “haram” ayda qurulan Ukaz bazarına gedərdilər. Bundan başqa ərəblərin Sahhar, Şəcər, Mücnə, Habaşə, Məşqər adlı bazarları da mövcud olmuşdur”[34]. Daha sonra o, qeyd edir: “Ərəblər şeir söyləmək, baş verən hadisələri müzakirə etmək, əylənmək, yaxud bəzi ümumi işlər haqqında söhbət etmək məqsədilə məclislər qururdular. Bu məclislər “Əndiyə” (klub; məclis) adlanırdı. Onlardan “Nəadi Qureyş”(“Qureyş məclisi”) və “Dərun Nədva” (“Müşavirə məclisi”, “Parlament”) Kəbə şəhəri yaxınlığında yerləşirdi. Bununla bərabər, ərəblər asudə vaxtlarında bir yerdə toplanaraq, əsasən Əsvaq (bazarlar) adı ilə tanınan məclislərdə şeir söyləməklə vaxtlarını keçirərdilər”[35].*

Bu qəbildən olan bazarların ən məşhuru “Ukaz” “عكاظ”(Məkkə yaxınlığında Cahiliyyə şairlərinin yarışdığı yarmarka, “تعاكظ” (şeirdə,

---

[33] Баранов Х.К. Арабско-Русский Словарь / Х.К.Баранов. – Москва: Изд-во «Русский язык», –1977. – с. 383

[34] زيدان، جرجي. تأريخ التمدن الإسلامى. – القاهرة: الناشر مؤسسة هنداوي، – ٢٠١٢، – الجزء الثالث. – ص. ٤٢.

[35] زيدان، جرجي. تأريخ التمدن الإسلامى. – القاهرة: الناشر مؤسسة هنداوي، – ٢٠١٢، – الجزء الثالث. – ص. ٤١.

bəlağətdə yarışmaq) idi[36].

Ukaz bazarı hər il Məkkə yaxınlığında Taif ilə Nəhl arasında yerləşən ərazidə qurulardı. Həcc ziyarətinə gələn ərəblər Zilqəda ayının əvvəlindən iyirmisinə qədər bu bazarda alış-veriş edər, sonra Kəbəyə həcc ziyarətinə yollanardılar"[37].

Bir sözlə, Cahiliyyət dönəmində meydana gələn bazarlar ədəbi məktəbə çevrilmişdir. Burada zəngin cahiliyyət poeziyası inkişaf etmiş, ümumi ərəb dili formalaşmışdır.

Fəslin "**Qurani-Kərimin nüzulu, ayə və surələrin təsbiti və yazıya alınması"** adlanan üçüncü paraqrafında islam mədəniyyətinin formalaşmasında Qurani-Kərimin müstəsna rolundan, onun nüzulu, yazıya alınması, oxunuşu və bununla da müsəlmanların yazı mədəniyyətinə yiyələnməsindən danışılır.

Curci Zeydan Qurani-Kərim barədə yazır: *"Ərəblər Cahiliyyət dövründə ənənəvi elm və mədəniyyət nümunələrinə öyrəşdikləri bir zamanda onlar üçün nazil olmuş Qurani-Kərimdəki fəsahət və bəlağətlə qarşılaşanda çaşıb qaldılar. Çünki Qurani-Kərimin dili və üslubiyyəti onların indiyə qədər öyrəşdikləri "Kəhanət" ("Kahinlərin nitqi") və yaxud oxuduqları vəznli və qafiyəli şeir növündə deyildi. Quran şeir və səc qaydalarına uyğun olan qafiyəli nəsr əsərinə bənzəyirdi. Bununla belə o nə şeirə, nə də nəsrə bənzəyirdi. Ərəblər əvvəllər belə bir bəlağət və bəyana malik olan üslub tərzi görməmişdilər. Qurani-Kərim din, dünyanın təməli, hakimiyyət və xilafətin ən mükəmməl idarə formasının təminatçısıdır"*[38].

Beləliklə, C.Zeydan Qurani-Kərimin müsəlmanların ictimai-siyasi, iqtisadi-mədəni həyatını əhəmiyyətli dərəcədə tənzimləyib istiqamət verən bir mənbə olduğunu göstərir.

İkinci fəslin **"İslamın gəlişi ilə qadın emansipasiyasına çevrilən "vaada""** adlı dördüncü paraqrafında ərəblərin islama qədərki həyatında mövcud olan "vaada" adətindən, islamın gəlişi ilə bu adətin

---

[36] Баранов Х.К. Арабско-Русский Словарь / Х.К.Баранов. – Москва: Изд-во «Русский язык», –1977. – с. 531.

[37] Zeydan, Corci. İslam Medeniyeti Tarihi / (mütercimi Zeki Meğamiz). III cilt – İstanbul: – 1973. – s. 64.

[38] زيدان، جرجي. تأريخ التمدن الإسلامى. – القاهرة: الناشر مؤسسة هنداوي، – ٢٠١٢، – الجزء الثالث. – ص.٤٩-٥٠.

aradan qaldırılmasından, cahiliyyət dövrünün məşhur qadınlarından söhbət açılır.

Cahiliyyət dövründə ərəblərin məişətində qeyri-adi adət-ənənələr mövcud olmuşdur. Onlar islam dini meydana gəldikdən sonra uzun müddət ərəblərin qüsurları kimi zaman-zaman yad olunmuşdur.

Cahiliyyətdən sonra islamın zühuru ərəfəsində ərəblərin lüğət tərkibinə daxil olan "vaadə" "وأد" sözünün mənası "diri-diri basdırılma (qədim ərəblərdə yeni doğulmuş qız uşaqlarının diri-diri basdırılması)" deməkdir[39].

Curci Zeydan "İslam mədəniyyəti tarixi" adlı fundamental əsərində "vaadə" adəti barədə geniş məlumat vermişdir: *"Cahiliyyət dövründə bəzi insanların qısqanclığı o həddə çatmışdır ki, qız uşaqları böyüdükcə utandırıcı və çirkin əməllər etməmələri üçün onları hələ kiçik ikən öldürmək və ya diri-diri torpağa basdırmağa başlamışdılar. Bununla bərabər, övlad qatilliyinə verilən "vaadə" adı ərəb qəbilələri arasında yeni adət olmasa da, çox qədim də deyildi. Bu adət islamın zühurundan bir az əvvəl ərəblərin Bəni Təmim ibn Murra qəbiləsinin bəzi üzvləri arasında baş verən hadisədən sonra yaranmışdı"*[40].

Deməliyik ki, Curci Zeydan "vaadə" adəti, cahiliyyət və islam dövrünün məşhur qadınları haqda məlumatları beşcildliyin sonuncu cildində "Cahiliyyət dövründə qadınlar", "Qız uşaqlarının tələf edilməsi", "Cahiliyyət dövrünün məşhur qadınları", "Raşidilər dövründə qadınlar", "Əməvilər dövründə qadınlar", "Abbasilər dövründə qadınlar" kimi xırda başlıqlar altında vermişdir.

Bir sözlə, cahil ərəblərin məişətində mövcud olan "vaadə" adəti islamın zühurundan sonra haqlı olaraq insanlığa sığmayan bir adət kimi aradan götürülmüşdür.

İkinci fəsildən əldə olunan nəticələr məqalələrdə qeyd olunub[41;42].

---

[39] Баранов, Х.К. Арабско-Русский Словарь / Х.К.Баранов. – Москва: Изд-во «Русский язык», –1977. – с. 869.

[40] زيدان، جرجي. تأريخ التمدن الإسلامى. – القاهرة: الناشر مؤسسة هنداوي، – ٢٠١٢، – الجزء الخامس. – ص. ٦٦

[41] İsmayılova, Ə.H. İslamdan öncəki ərəblərin elmi-mədəni həyatı Cürci Zeydan tədqiqatlarında. AMEA Şərqşünaslıq İnstitutu. Şərq filologiyası məsələləri (məqalələr toplusu). Doqquzuncu buraxılış. Bakı: Araz nəşriyyatı, - 2016, - s. 123-132.

Dissertasiya işinin **“Xilafət zamanı islam mədəniyyətinin təzahür formaları və Əndəlusda yayılması Curci Zeydan yaradıcılığında”** adlı üçüncü fəsli dörd paraqrafdan ibarətdir. **“Şeir və musiqi sənəti islam mədəniyyətinin başlıca təzahür formaları kimi”** adlanan birinci paraqrafda şeir və musiqi mədəniyyətinin yaranma tarixindən, sonrakı mərhələlərdə keçdiyi inkişaf yolundan, Əməvilərin son və Abbasilərin ilk dövrlərində yetişən bir sıra islam ərəb müğənnilərdən, onlara verilən hədiyyə və mükafatlardan, Abbasilər dövrünün məşhur filoloqu Xəlil ibn Əhməd əl-Fərahidinin poeziya və dilçilik elminə verdiyi töhfələrdən bəhs olunur.

Curci Zeydan şeiri insan mənəviyyatının qidası hesab edir və şeiri “lisən əl-qalb va ər-ruh” (“Qəlbin və ruhun dili”) adlandırır. Bu mənada ərəbləri sami dövlətinin anadan şair doğulmuş ən nəğməkar bir xalqı kimi təqdim edir. O, köçərilərin ildə bir neçə dəfə yurd-yuvasını dəyişməsini bədəvi ərəbin mənəviyyatında bir nəğməkarlıq ruhunu gücləndirmişdir – deyir[43].

İslamdan əvvəl ərəblərin poeziyaya, şeirə dərin rəğbət bəslədiklərini bəyan edən Curci Zeydan yazır ki, Cahiliyyət ərəblərinin məhz poeziyaya vurğunluğunun nəticəsidir ki, onlar “Müəlləqat”, “Muzahhabat” kimi seçilmiş qəsidələri bütün şeirlərin fövqündə dayandığını hesab etmişdilər[44].

Curci Zeydan şairləri yaşadıqları dövrlə səciyyələndirərək onları bir neçə qrupa bölür. O, qeyd edir ki, ərəb poeziyasında ilk sinif şairləri Cahiliyyət şairləri hesab olunur. Bu sinfin nümayəndələri sırasında ilkin olaraq “Müəlləqə” sahiblərinin adları çəkilir. İkinci sinfə daxil olan Əməvilər dövründə yazıb yaradan şairlərdir ki, bunlara “Muxadramun” şairlər deyirlər. Bu sıraya “Şair Nəbi” (“Peygəmbər şairi”) kimi tanınan Həssan bin Sabit, “Qasıdətu-l-burdə” sahibi kimi tanınan Kəb ibn Züheyr, həmçinin Əməvilərin məşhur şairləri kimi tanınan Cərir ibn

---

[42] İsmayılova, Ə.H. Ərəb poeziyasının inkişafında Ukaz bazarının rolu. AMEA Şərqşünaslıq İnstitutu. Elmi araşdırmalar (elmi-nəzəri məqalələr toplusu). X buraxılış. Bakı: “Elm və təhsil” nəşriyyatı, - 2014, - s. 18-22.

[43] Zeydan, Corci. İslam Medeniyeti Tarihi / (mütercimi Zeki Meğamiz). III cilt – İstanbul: – 1973. – s. 46.

[44] Zeydan, Corci. İslam Medeniyeti Tarihi / (mütercimi Zeki Meğamiz). III cilt – İstanbul: – 1973. – s. 53.

Atiyyə, Qiyas ibn Gaus əl-Əxtəl və Həmmam ibn Qalib Fərəzdəq daxildir. “Muvəllidun” sinfinə isə Abbasilər dövrünün məşhur şairləri Bəşşar bin Burd, Əbul Ətahiyə, Əbu Nuvas, Əbu Təmmam və əl-Buhturi aiddirlər. Bu yenilikçi şairlərdən sonra Abbasilər dövrünün bir neçə ortaçağ şairlərinin adını çəkir və göstərir ki, bu qrup şairlərin sırasına Mütənəbbi, Əbul Əla əl-Məərri, əş-Şərif ər-Radi, əs-Safiyə əl-Halli kimi şairlər daxildir ki, onların şeirlərində fəlsəfə, hikmət və s. kimi motivlər daha çox əks olunmuşdur[45].

Həmin paraqrafda ərəb şeirinin bəzəyi əruz elmi və onun yaradıcısı məşhur ərəb filoloqu Xəlil ibn Əhməd əl-Fərahididən (718-791) bəhs olunur.

Curci Zeydan Xəlil ibn Əhməd əl-Fərahidi haqqında öz fikirlərini “İslam mədəniyyəti tarixi”nin üçüncü cildində[46] vermişdir.

Hələ islamdan öncə qəbilələrası döyüşlərdə ərəblərdə şeirlə musiqi vəhdət təşkil edirdi. C.Zeydan yazır ki, qoşunun döyüşdə musiqidən istifadə etməsinin kökü qədim zamanlara dayanır. O zaman ordunun qarşısında “nəğmə” (ğınə) və “nəşid” (tərənnüm) şeirləri oxuyurdular və bu “təbl” (dəf) vasitəsilə müşayiət olunurdu. Sədrul islam dövründə isə bu alətə “əbvaq”lar və dəflər (tubul) əlavə olundu[47].

Curci Zeydan daha sonra Əməvilərin son və Abbasilərin ilk dövrlərində yetişən bir sıra ərəb müğənnilərdən “İslam mədəniyyəti tarixi” əsərinin beşinci cildində bəhs edir. Bunlardan hər iki dövrdə yaşamış kişi müğənnilərindən Süreyc, Qariz, Mabəd, Hakəmu-l-Vadi, Öməru-l-Vadi, Seyat və nəhayət, Abbasilər dövrünün məşhur müğənniləri – ata-oğul İbrahim və İshaq Mosulilərin, qadın müğənnilərdən isə Cəmilə, Həbabə, Səlamə, Uqeylə kimi tanınmış musiqiçilərin adlarını çəkir[48].

Beləliklə, şeir, əruz və musiqi islamın zəngin mədəniyyət xidmətlərinin içərisində öncül yerlərdən birini tutmuşdu.

Üçüncü fəslin **“İslam mədəniyyətini yaşadan xəlifə və vəzir**

---

45 زيدان، جرجي. تأريخ التمدن الإسلامى. – القاهرة: الناشر مؤسسة هنداوي، – **٢٠١٢**، – الجزء الثالث. – ص. ١٢٨ - ١٢٩.

46 زيدان، جرجي. تأريخ التمدن الإسلامى. – القاهرة: دارالهلال، – **١٩٥٦**، – الجزء الثالث. – ص. ١٣٠

47 زيدان، جرجي. تأريخ التمدن الإسلامى. – القاهرة: دارالهلال، – **١٩٥٦**، – الجزء الأول. – ص. ١٩٣

48 Zeydan, Corci. İslam Medeniyeti Tarihi / (mütercimi Zeki Meğamiz). III cilt – İstanbul: – 1973. – s. 421.

**səxavəti”** adlanan ikinci paraqrafında Abbasi xəlifələri və Bərməki vəzirlərinin topladığı sərvətləri ilə hakimiyyətdə olduqları dövrün elm və incəsənət adamlarının yaşayışlarını təmin etməklərindən bəhs olunur. Maddi cəhətdən təmin edilmiş sənət adamları, xüsusilə, şairlər həvəslə yazıb-yaratmışlar və nəticədə islam mədəniyyətinin zənginləşərək inkişaf etməsinə əhəmiyyətli təsir göstərəcək töhfələr vermişlər.

Curci Zeydan yazır ki, ilk bərməki vəziri Xalid kor şair Bəşşar bin Burdun hər beytinə min dirhəm vermişdir. Onun oğlu Yəhya ata minib qoşunla gedəndə ondan sədəqə istəyənlərin hər birinə 200 dirhəm verər, üstündə pul olmayanda isə mindiyi atı ona bağışlayarmış[49].

Bütün bu təltiflər ona dəlalət edir ki, xəlifələrin səxavətli davranıb şairlərə, sənətkarlara belə sərvət vermələri, eləcə də elm, ədəbiyyat və sənətin inkişafına göstərdiyi misilsiz qayğı və diqqətləri ümummüsəlman mədəniyyətinin təbliğinə, inkişafına təkan vermiş və bu mədəniyyətin sonrakı nəsillərə ötürülməsində misilsiz rolu olmuşdur.

Fəslin üçüncü paraqrafı **“Mədrəsə və kitabxanaların islam mədəniyyətinin inkişafında rolu”** adlanır.

İslam dini meydana gəldikdən sonra ərəblərin bədəvisi də, mədənisi də bu yeni dünyagörüşün mahiyyətinə varmağa başladı və ərəb ictimaiyyətini dərindən düşündürməyə vadar etdi.

Qurani-Kərimin mədrəsədə tədrisinin başlanılması dövrü haqqında dəqiq məlumat yoxdur. Çünki Quranın yazıya alınıb mədrəsələrdə öyrənilməsinə qədər xeyli vaxt keçmişdir.

Qurani-Kərimin mədrəsələrdə tədrisi barədə Curcinin “İslam mədəniyyəti tarixi” adlı araşdırmasının “Əl-mədərisu fi-l-isləm” المدارس في الاسلام (“İslamda mədrəsələr”) adlı bölməsində məlumat verilmişdir[50]. Bu bölmədə Qurani-Kərimi bütün islami elmlərin zirvəsində dayandığını qeyd edən C.Zeydan Məhəmməd peyğəmbəri (s) islam tarixində ilk müdərris hesab edir və göstərir ki, səhabələrə və

---

[49] Zeydan, Corci. İslam Medeniyeti Tarihi / (mütercimi Zeki Megamiz). V cilt – İstanbul: – 1966.– s. 230.

[50] زيدان، جرجي. تأريخ التمدن الإسلامى. – القاهرة: الناشر مؤسسة هنداوي، – ٢٠١٢، – الجزء الثالث. – ص. ٢٣١ -٢٤٧.

ənsarlara ilk islami təlimi məhz Məhəmməd peyğəmbər (s) özü verməli olmuşdur[51].

Beləliklə, peyğəmbəri "ilk müəllim" adlandıran yazıçı qeyd edir ki, mədrəsələr, məscidlər Quranın təbliği, tədrisi ilə VII əsrdən məşğul olmuşdular. Belə məscidlərdən biri Bağdadda xəlifə Mənsurun inşa etdirdiyi "Mənsur məscidi" idi[52].

Curci Zeydana görə, Abbasilər dövrünün ortalarında ərəb dünyasında iki mədrəsə mövcud olmuşdur. Onlardan birincisi hicrətin IV əsrində Qahirədə inşa edilmiş "əl-Əzhər" mədrəsəsi idi. Ona "Cami əl-Əzhər" جامع الازهر də deyirdilər. Digəri isə İraqın Bağdad şəhərində "Mədrəsət ən-Nizamiyyə" (Nizamiyyə mədrəsəsi) adlı mədrəsədir. Bu mədrəsəni on il Səlcuq sultanı Alp Arslana vəzirlik edən Nizamülmülk ət-Tusi inşa etdirmişdi[53].

İslam ideologiyasının və mədəniyyətinin tədrisi, təbliği, təşviqi kimi məsələlərdə mədrəsə və kitabxanaların böyük rolu olmuşdur.

Üçüncü fəslin **"Curci Zeydan islam mədəniyyətinin Əndəlusdakı təşəkkülü və inkişafı barədə"** adlı dördüncü paraqrafında ərəblərin Əndəlusda yaratdıqları müsəlman mədəniyyətindən, xüsusilə də onların İspaniyada yaratdıqları şəhərsalma mədəniyyətindən, memarlıq üslubiyyətindən əhatəli bəhs olunur.

Tarixdən məlumdur ki, ərəblər Əməvi xəlifələrinin hakimiyyətləri illərində Afrikanın şimalını zəbt etdikdən sonra "Cəbəlu-t-Tariq" boğazını keçməklə 710-cu ildə İspaniya torpaqlarına qədəm qoymuşlar[54].

Tanınmış Azərbaycan ərəbşünası, professor A.N.İmanquliyeva yazır ki, İspaniyaya səfər edənlərin içində yoxsulluqdan qurtarmaq və xoşbəxt yaşamaq arzusu ilə gedənlərlə yanaşı, ərəb ölkələrində

---

[51] زيدان، جرجي. تأريخ التمدن الإسلامى. – القاهرة: الناشر مؤسسة هنداوي، – ٢٠١٢، – الجزء الثالث. – ص. ٢٣١

[52] Zeydan, Corci. İslam Medeniyeti Tarihi / (mütercimi Zeki Meğamiz). III cilt – İstanbul: – 1973. – s. 424

[53] زيدان، جرجي. تأريخ التمدن الإسلامى. – القاهرة: الناشر مؤسسة هنداوي، – ٢٠١٢، – الجزء الخامس. – ص. ٢٣١ - ٢٣٢

[54] Крачковский, И.Ю. Избранные сочинения: [в 6 томах] / И.Ю.Крачковский. – Москва-Ленинград: Издательство Академии Наук СССР, – 1956, – т. 2,– с.470.

hakimiyyətini, nüfuzunu itirmiş xəlifələr, varlılar, tayfa başçıları da olurdu[55].

İspaniyada yeni Əndəlus-Əməvilər dövlətinin əsasını qoyan isə Əbdur Rəhman (hak. dövrü 756-788) olmuşdur və o da həmin köç edənlərdən biri idi. Əbdur Rəhman tarixdə "Dəxil" ləqəbi ilə tanınır. Çünki o, İspaniyanı fəth etməmiş, ona sadəcə olaraq daxil olmuşdur. Onun bir ləqəbi də "Saqr əl-Qureyş" "صقر القريش" ("Qureyş qartalı") idi[56].

Curci Zeydan "İslam mədəniyyəti tarixi" beşcildliyinin beşinci cildində yazır ki, Əməvilərin Kordovadakı izlərini yaşadan belə maddi-mədəniyyət nümunələrindən biri "əl-Qəsr əl-kəbir" "القصر الكبير" ("Böyük qəsr")dir. Bu qəsr hicri tarixinin ikinci əsrinin ortalarında tarixdə "Ərəb qartalı" adı ilə tanınan Əməvi hökmdarı Əbdur Rəhman əd-Dəxil tərəfindən salınmışdır[57].

Təbiidir ki, orta əsrlərdə Əndəlus ərazisində müsəlman mədəniyyətinin simasını əks etdirən maddi-mədəniyyət nümunələrindən biri də məscid və camilər idi. Bu tikililər islamı qəbul edən hər bir müsəlmanın müqəddəs məkanıdır. İspaniyadakı Əməvi müsəlmanlar öz dini adət və ənənələrini yaşatmaq, ona sadiq qaldıqlarını sübuta yetirmək üçün məscid, cami tikintisinə də böyük diqqət yetirmişlər. Onların İspaniya ərazisində inşa etdikləri belə möhtəşəm tikililərdən biri də Kordova məscidi idi. Bu məscid barədə C.Zeydan belə yazır: *"Kordovanın malik olduğu ən böyük binalardan biri də məscid idi. Etibarlı mənbələrin söylədiklərinə görə, islam ölkələrində bu məscid qədər dəyərli və əzəmətli bir məscid mövcud olmamışdır. Əvvəllər bu məscidin yerində kilsə olmuşdur"*[58].

C.Zeydanın "İslam mədəniyyəti tarixi"nin beşinci cildində

---

[55] İmanquliyeva, A.N. Məqalələr və tərcümələr / A.N.İmanquliyeva, tərt. ed., V.Cəfər. – Bakı: Bakı Çap Evi, – 2010. – s. 35.

[56] Mahmudov, M.R. Klassik ərəb ədəbiyyatı / M. Mahmudov. – Bakı: Bakı Universiteti Nəşriyyatı, – 2001.– s. 149-150.

[57] زيدان، جرجي. تأريخ التمدن الإسلامى. – القاهرة: الناشر مؤسسة هنداوي، – ٢٠١٢، – الجزء الخامس. – ص. ١١٤.

[58] زيدان، جرجي. تأريخ التمدن الإسلامى. – القاهرة: الناشر مؤسسة هنداوي، – ٢٠١٢، – الجزء الخامس. – ص. ١١٥.

dövrümüzə qədər öz möhtəşəmliyini qoruyub saxlayan, dünya turistlərinin hədsiz marağına səbəb olan və amerikan yazıçısı İrvinq Vaşinqtonun XX əsrin əvvəllərində ziyarətinə getdiyi, onun memarlıq üslubundan ilhamlanaraq “Alqambra” adlı bir əsər yazdığı “əl-Həmra” sarayıdır.

“Əl-Həmra” sarayı və ona bənzər tikilən saraylar” adlı kiçik bir bölmədə C.Zeydan yazır: *“Əl-Həmra” sarayı Qərnatada tikilən çox məşhur bir saraydır. Hələ salındığı dövrdən bu günə qədər (yəni XX əsrin əvvəlinə qədər) özünün əzəmətini, möhtəşəmliyini hifz edib saxlamış bu saraya dünyanın hər yerindən turistlər gəlib ona tamaşa edirlər”*[59].

Beləliklə, ərəblər təkcə Şərqdə deyil, həm də Qərbdə özlərinin dil və ədəbiyyatını, adət-ənənələrini, islam dəyərlərini yaymış və inkişaf etdirmişlər. Bu fəsildə araşdırılan məsələlər və müəyyən edilən nəticələr elmi məqalələrdə əks olunmuşdur[60; 61; 62].

Cahiliyyə, Əməvilər, Abbasilər dövrünün elmi-mədəni mühiti C.Zeydanın “Tərixu-t-təmədduni-l-isləmiyyi” (“İslam mədəniyyəti tarixi”) adlı beşcildlik tədqiqat əsəri əsasında araşdırılarkən bir sıra konkret elmi **nəticələr** əldə edilmişdir:

– Curci Zeydanın həyat yolu, yaradıcılığı və mühitinə qısa nəzər salınmışdır. Onun Livandan Misirə qədər keçdiyi həyat yolu işıqlandırılmış və Misirdə qarşılaşdığı ədəbi-elmi mühitdə bir ədib kimi formalaşdığı göstərilmişdir.

– Curci Zeydan müasir ərəb ədəbiyyatı tarixində tarixi roman

---

[59] زيدان، جرجي. تأريخ التمدن الإسلامى. – القاهرة: الناشر مؤسسة هنداوي، – **٢٠١٢**، – الجزء الخامس. – ص. ١١٧.

[60] İsmayılova, Ə.H. Cürci Zeydanın Ərəb xilafətinin musiqi mədəniyyəti barədə fikirləri. BDU. Dil və ədəbiyyat - Beynəlxalq elmi-nəzəri *jurnal. 1(109).* Bakı: Ləman nəşr-poliqr. MMC, - 2019, - s. 283-285.

[61] İsmayılova, Ə.H. Cürci Zeydan yaradıcılığında xəlifə və vəzir səxavəti. AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri. № 1. Bakı: «Elm və təhsil» nəşriyyatı, - 2022, - s. 294-302.

[62] Ismailova, A.H. Studies by Jurji Zaydan on the spread of Arab literature and Islamic culture in Europe. ВЧЕНІ ЗАПИСКИ Таврійського національного університету імені В.І. Вернадського. (Серія: Філологія. Журналістика).Україна: Видавничий дім «Гельветика». Том 33 (72) № 4 Том 2, - 2022, с.137-143.

janrının banisi və islam tarixi və mədəniyyətinin tədqiqatçısı hesab olunur. O, islamdan əvvəlki dövrlərdən müasir dövrə qədər müsəlmanların həyatında və ərəb tarixində baş verən hadisələrlə bağlı 22 roman və bir çox tədqiqat əsərləri nəşr etdirmişdir.

– Yazıçının 1892-ci ildə təsis etdiyi "əl-Hilal" jurnalı ərəb ədəbi-mədəni fikrinin ən məşhur və mötəbər qaynaqlarından biri hesab olunurdu. Ərəblərin keçmiş şanlı tarixi, milli adət-ənənələri və mədəni irsinin qorunmasında bu jurnalın müstəsna xidməti olduğu göstərilir.

– İki əsrin qovşağında – VI əsrin sonu və VII əsrin əvvəllərində Ərəbistanda ictimai-siyasi və ədəbi-mədəni həyata nəzər salınaraq bu ərəfədə islama münasibətin birmənalı olmadığının və sonrakı dövrlərdə islamı qəbul edərək təbliğ edən şairlərin sayəsində ictimai-siyasi və ədəbi-mədəni mühitin inkişaf etməsinin qənaətinə gəldik.

– Curci Zeydanın adını çəkdiyimiz beşcildliyində, xüsusən onun birinci və üçüncü cildlərində bu iki dövrün arasındakı kəskin fərqlərin müqayisəli şəkildə geniş əks olunduğunu müşahidə etdik.

– Dissertasiya işində islam dövrünə keçid etməzdən əvvəl Cahiliyyət dövrünün əsasən diqqəti çəkən iki məqamı göstərilmişdir. Bunlardan birincisi Ukaz bazarı və onun ətrafında cərəyan edən hadisələrdir. Ukaz bazarı söz sənətinin inkişafında və şairlərin püxtələşməsində əhəmiyyətli rol oynamışdır. Burada zəngin cahiliyyət poeziyası inkişaf etmiş, müsabiqələrdə seçilmiş qəsidələr parlaq poeziya nümunələrinə çevrilmiş, ümumi ərəb dili formalaşmışdır. İkinci məqam isə – "Vaadə"- "وأد" - (qız uşaqlarının diri-diri basdırılması) adətidir. Bu ikrah doğuran adət cahili ərəblərin məişətində mövcud olmuşdur. Lakin islam dini meydana gəldikdən sonra cahiliyyətin bütün çirkin və vəhşi adətlərini rədd edərək qadın şəxsiyyətini ucaltmış və hüquqlarını qorumuşdur.

– İslamın gəlişi ilə Ərəbistan yarımadasında insanların həyat və məişətində, onların dünyaya baxışında, etik-estetik düşüncə tərzlərində tamamilə yeni bir ab-hava formalaşmasının şahidi olduq. Özünü "nəbi ummi" (yazıb-oxumağı bacarmayan peyğəmbər) adlandıran Məhəmməd peyğəmbər (s) və ənsarları çox

tez bir zamanda yazıb-oxumağı mənimsəməyə başladılar. Qurani-Kərimin nüzulu ilə insanların həyat və məişətlərinin məğzi dəyişdi. Qurani-Kərimin tövsiyə və göstərişləri bütün sahələrin, eləcə də yazı və oxu mədəniyyətinin inkişaf etməsinə zəmin yaratdı.

– Tədqiqat zamanı müəyyən edilmişdir ki, islam mədəniyyətinin zənginləşməsinə və yaşanmasına, yayılmasına xidmət edən bir sıra amillər mövcud olmuşdur. Dissertasiyada vurğulanır ki, islamın zəngin mədəniyyət xidmətlərinin içərisində şeir sənəti və musiqi öncül yerlərdən birini tutmuşdur.

– Xəlifə, vəzir, vali, yüksək rütbəli varlı qoşun sərkərdələri kimi nüfuzlu şəxsiyyətlərin səxavətləri islam mədəniyyətinin yaşanmasına, yayılmasına səbəb olmuş və nəticədə islam mədəniyyəti zənginləşərək inkişaf etmişdir.

– İslam mədəniyyəti nümunələrinin yayılması və inkişafında ölkədə mövcud olan mədrəsə və kitabxanaların da danılmaz rolu olmuşdur. Müsəlmanlar əraziləri fəth etdikləri zaman kitabxanaları müxtəlif səbəblərə görə məhv etmələrinə baxmayaraq, xilafətin müxtəlif şəhərlərində kitabxanalar inşa etmişlər. C.Zeydan bu kitabxanaların islam ideologiyasının və mədəniyyətinin tədrisi, təbliği kimi önəmli məsələlərdə mühüm yer tutduğunu müxtəlif tarixi mənbələr əsasında göstərmişdir.

– İslam mədəniyyəti təkcə Şərqdə deyil, Pireney yarımadasına qədər yayılmışdır. Ərəblər İspaniyaya qədəm qoyduqdan sonra Əndəlus adlanan ərazidə özlərinin dil və ədəbiyyatını, adət-ənənələrini, islami dəyərlərini yaymış və inkişaf etdirməyə başlamışdılar. C.Zeydan ərəb-müsəlman ədəbiyyatı və mədəniyyətinin mühüm qolu olan Əndəlus ədəbiyyatı və mədəniyyətini bu beşcildlikdə əhatəli şəkildə tədqiq etmişdir.

Beləliklə, qeyd etməliyik ki, dissertasiyada əldə edilən elmi qənaətlər, alınan elmi nəticələr bütünlüklə islam mədəniyyətinin əbədiliyinə zəmanət verən əsas aparıcı amillərdir.

## DİSSERTASİYANIN MÖVZUSUNA DAİR MÜƏLLİFİN DƏRC OLUNMUŞ ELMİ ƏSƏRLƏRİN SİYAHISI

1. Ərəb poeziyasının inkişafında Ukaz bazarının rolu. AMEA Şərqşünaslıq İnstitutu. Elmi araşdırmalar (elmi-nəzəri məqalələr toplusu). X buraxılış. Bakı: "Elm və təhsil" nəşriyyatı, – 2014, – s. 18-22.
2. İslamdan öncəki ərəblərin elmi-mədəni həyatı Cürci Zeydan tədqiqatlarında. AMEA Şərqşünaslıq İnstitutu. Şərq filologiyası məsələləri (məqalələr toplusu). Doqquzuncu buraxılış. Bakı: Araz nəşriyyatı, – 2016, – s. 123-132.
3. Cürci Zeydanın Ərəb xilafətinin musiqi mədəniyyəti barədə fikirləri. BDU. Dil və ədəbiyyat - Beynəlxalq elmi-nəzəri jurnal. 1(109). Bakı: Ləman nəşr-poliqr. MMC, – 2019, – s. 283-285.
4. Cürci Zeydan yaradıcılığında xəlifə və vəzir səxavəti. AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri. № 1. Bakı: «Elm və təhsil» nəşriyyatı, – 2022, – s. 294-302.
5. Studies by Jurji Zaydan on the spread of Arab literature and Islamic culture in Europe. ВЧЕНІ ЗАПИСКИ Таврійського національного університету імені В.І. Вернадського. (Серія: Філологія. Журналістика). Україна: Видавничий дім «Гельветика». Том 33 (72) № 4 Том 2, – 2022, с.137-143.
6. Глашатай мусульманской цивилизации в Андалусии. Восточные общества: традиции и современность. Материалы II съезда молодых востоковедов стран СНГ, 11-14 ноября 2013 года, Москва-Баку, – 2014, – с. 23-24.
7. Cürci Zeydan cahiliyyə ərəblərinin واد adəti haqqında. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş gənc tədqiqatçıların II Beynəlxalq Elmi Konfransı. Qafqaz Universiteti, 18-19 Aprel 2014-cü il, Bakı/Azərbaycan, 2014, – s. 404-405.
8. The "Crescent" of the Middle East. International Euroasia Congress on Scientific Researches and Recent Trends 9. February 18-20, 2022, – Antalya, Turkiye. (Online) - Book of full texts, – p. 190-195.
9. Curci Zeydanın Azerbaycan türkçesine çevrilmiş tarihi

romanlari. Uluslararası Kars alimleri ve edebiyatçıları sempozyumu-II. Kafkas Universitesi Ebul-Hasan Harakani Uygulama ve Araştırma Merkezi. Kars, Turkiye, 18.11. 2022 (Online), – s. 99-106.

10. İslamın zühuru zamanı Ərəbistan yarımadasında ədəbi-mədəni durum. International Conference Azerbaijani Oriental Studies in the Context of East-West Scientific-Cultural&Socio-Political Dialogue. Book of Abstracts. 14-15 December 2022, Baku State University. Baku, Azerbaijan, – s. 177.
11. Cahiliyyə dövründə qadınlar. Akademik Zərifə Əliyevanın anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Dəyişən dünyada qadin: Şərq və Qərb baxışı" mövzusunda Beynəlxalq Elmi Konfrans. 6-7 mart 2023-cü il, – s. 93.
12. Curci Zeydan və onun "İslam mədəniyyəti tarixi" əsərinin qısa icmalı. Akad. Z.M.Bünyadovun 100 illik yubileyinə həsr olunmuş "qədim və müasir şərq: mənbələr, tədqiqatlar, perspektivlər" mövzusunda Beynəlxalq Elmi Konfrans. 20-21 dekabr, – 2023, – s. 198.



Dissertasiya işinin müdafiəsi 4 iyun 2025-ci il tarixində saat 12:00-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiyası Komissiyasının AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun FD 1.18 – Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az-1143, Bakı ş., H.Cavid pr. 117, AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu. VII mərtəbə, Oxu zalı.

Dissertasiya ilə AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 1 may 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 29.04.2025
Kağızın formatı: A5
Həcm: 47976
Tiraj:100